Avropa İttifaqi tərəfindən birgə maliyyələşdirilir
AVROPA İTTİFAQI
COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE
Avropa Şurası tərəfindən birgə maliyyələşdirilir və icra edilir

# Yaxşı İdarəçilik üçün Tərəfdaşlıq

## Azərbaycanda qadınlara qarşı zorakılıq və məişət zorakılığının qarşısının alınması və onunla mübarizə

Bu layihə qadınlara qarşı zorakılıq və məişət zorakılığı sahəsində beynəlxalq standartları təşviq etməyə davam edəcək, daxili qanunvericiliyin beynəlxalq standartlara daha da uyğunlaşdırılılması və qadınlara qarşı zorakılıq və məişət zorakılığının qarşısının alınması və onunla mübarizə sahəsində beynəlxalq standartların tətbiq edilməsi üçün dövlət qurumlarının, hüquq mühafizə orqanları əməkdaşlarının, vətəndaş cəmiyyəti və digər tərəfdaşların bacarıqlarını gücləndirməyə çalışacaq.

Bu layihə Avropa İttifaqı və Avropa Şurasının 2023-2027-ci illəri əhatə edən "Yaxşı İdarəçilik üçün Tərəfdaşlıq" birgə proqramının üçüncü mərhələsi çərçivəsində həyata keçirilir. Layihə qadınların ədalət mühakiməsinə çıxış imkanlarının artırılması və qadınlara qarşı zorakılıqla mübarizə sahəsində Yaxşı İdarəçilik üçün Tərəfdaşlığın əvvəlki mərhələlərinin (I mərhələ 2015-2018 və II mərhələ 2019-2023) nəticələrinin davamı olaraq həyata keçirilir.

### Layihənin məqsədi nədir?

- ► Azərbaycanda qadınlara qarşı zorakılıq və məişət zorakılığı (QQZ/MZ) sahəsində beynəlxalq standartları təşviq etmək;
- ► Müvafiq qurumların, xüsusilə də hüquq-mühafizə orqanlarının QQZ/MZ hallarını səmərəli şəkildə həll etmək və qurumlararası əməkdaşlığı təşviq etmək üçün bacarıqlarının gücləndirilməsi;
- ► Gender bərabərliyi və QQZ/MZ sahəsində yerli qanunvericilik və siyasətlərin beynəlxalq standartlara daha da uyğunlaşdırılması üçün yerli tərəfdaşları qanunvericilik və siyasətlərdə dəyişikliklər etməyə təşviq etmək.

### Layihədən kim faydalanır?

- ► Dövlət qulluqçuları
- ► Hüquqşünaslar
- ► Hüquq mühafizə orqanlarının əməkdaşları
- ► Hüquq fakültəsinin tələbələri
- ► Vətəndaş cəmiyyəti
- ► Məktəblər
- ► Qadınlara qarşı zorakılığın və məişət zorakılığının qurbanları
- ► Ümumi ictimaiyyət

### Layihə necə fəaliyyət göstərir?

- ► Üç əsas fəaliyyət sahəsi üzrə:

  - məlumatlılığın artırılması;
  - bacarıqların gücləndirilməsi və qurumlararası əməkdaşlığın möhkəmləndirilməsi; və
  - qanunvericilik və siyasətlərin gücləndirilməsi.

### Biz nəyə nail olmaq istəyirik?

- ► Əsas tərəfdaşlar və ümumi ictimaiyyət QQZ/MZ sahəsində beynəlxalq standartlar barədə daha çox məlumata malikdirlər;
- ► Bilik və bacarıqlar müvafiq qurumlar tərəfindən beynəlxalq standartlara uyğun olaraq QQZ/MZ hallarını səmərəli şəkildə həll etmək üçün tətbiq edilir;
- ► Qurumlararası əməkdaşlıq təşviq edilir;
- ► Yerli tərəfdaşlar gender bərabərliyi və QQZ/MZ sahəsində yerli qanunvericilik və siyasətləri

beynəlxalq standartlara daha da uyğunlaşdırmaq üçün qanunvericilik və siyasətlərdə dəyişikliklər istiqamətində fəaliyyət göstərirlər.

## Layihənin büdcəsi nə qədərdir?

- Ümumi büdcə 700,000 avrodur.
- Proqramın ümumi büdcəsi 19.3 milyon avrodur (80%-i Avropa İttifaqı, 20%-i Avropa Şurası tərəfindən maliyyələşdirilir).

## Əlavə məlumat necə almaq olar?

- Yaxşı İdarəçilik üçün Tərəfdaşlıq proqramının veb səhifəsi: http://partnership-governance-eu.coe.int/
  e-mail: dpc_pgg@coe.int
- Avropa Şurasının Bakı ofisinin veb səhifəsi: Avropa Şurasının Bakı ofisi (coe.int);
  email: fieldbaku@coe.int

## Layihənin müddəti nə qədərdir?

- Layihə 1 mart 2023-cü il tarixindən 28 fevral 2026-cı il tarixinə kimi davam edəcək.

*“Yaxşı İdarəçilik üçün Tərəfdaşlıq” (PGG) Şərq Tərəfdaşlığı regionunda yaxşı idarəçiliyin gücləndirilməsi üçün Avropa İttifaqı və Avropa Şurasının birgə təşəbbüsüdür.*

*PGG Şərq Tərəfdaşlığı ölkələrinin qanunvericilik və təcrübələrini insan hüquqları, qanunun aliliyi və demokratiya sahələrində Avropa standartlarına uyğunlaşdırmaq üçün onların ehtiyaclarına müvafiq dəstək göstərir. Proqram, xüsusilə Şərq Tərəfdaşlığı ölkələrinin ədalət mühakiməsini gücləndirmək, iqtisadi cinayətlərə qarşı mübarizə aparmaq, bərabərlik və ayrı-seçkiliyə yol verməmək, qadınların ədalət mühakiməsinə çıxış imkanlarını artırmaq və qadınlara qarşı zorakılıqla mübarizə aparmaq üçün həyata keçirilən daxili islahatları dəstəkləyir.*